**AUDİT 2023, 1 (39), səh. 85-90.**
**AUDIT 2023, 1 (39), pp. 85-90.**
**АУДИТ 2023, 1(39), стр. 85-90.**

**DOI: 10.59610/bbu1.2023.85-90**

*İskəndərova Şaiqə Həmzə qızı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti*
*E-mail: iskenderovashaiqe@gmail.com*
*© İskəndərova Ş. H., 2023*

**UOT - 342.725.1**

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT DİLİ SİYASƏTİ

## X Ü L A S Ə

İstər sövet dönəmində, istərsə də müstəqillikdən sonra Azərbaycan xalqının taleyində müstəsna rol oynamış Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinin inkişafında da çox böyük xidmətləri olmuşdur. O, dilimizin qorunması, inkişafı, saflığı və təbliği yolunda saysız işlərə imza atmışdır. Onun Azərbaycan xalqı, eləcə də Azərbaycan dilinin inkişafındakı xidmətləri Ulu Öndəri bu xalqın daş yaddaşına əbədi həkk etmişdir.

**Açar sözlər:** Azərbaycan dili, xalqın yaddaşı, xalqa xidmət, dövlət dili, tarix, mədəniyyət, incəsənət.

## G İ R İ Ş

Dünya siyasət aləmində özünəməxsus yeri olan Ulu Öndər Heydər Əliyev özünün siyasi düşüncə bacarığı, erudisiyası ilə dünyanın siyasət nəhəngləri ilə bir sırada durur. Onun möhtəşəmliyinin əsasında isə təkcə xarici siyasət bacarığı deyil, eyni zamanda heyrətamiz dərəcədə millətinə, xalqına vurğunluğu, onun tarixini, mənəviyyatını, dilini, dinini hər şeydən uca tutması, ömrünü xalqına fəda etməsi dayanır. Ulu Öndər Heydər Əliyevin xalqına saysız xidmətləri içərisində ana dilimizə - Azərbaycan dilinə olan münasibəti xüsusilə fərqlənir. "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir" deyən Ulu Öndər Heydər Əliyev bu yolda çox böyük fədakarlıqlar göstərərək Azərbaycan dilinin layiq olduğu səviyyədə bərqərar olmasına nail oldu.

Ulu Öndər Heydər ƏIiyev Azərbaycan dili, onun mənşəyi, adı, bu dilin formalaşıb sabit bir səviyyəyə çatması kimi məsələləri çox ciddi elmi faktlar və sübutlarla əsaslandıraraq ana dilimizə çox böyük qiymət verir və onu dünya dilləri ilə bir sırada tuturdu. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dili ilə bağlı fikirləri çoxtərəfliliyi ilə seçilirdi. Belə ki, dil siyasəti, dil quruculuğu, əlifba, üslublar və s. bu kimi məsələlər özünün aydın həlli yolları ilə onun çıxışlarında əksini tapırdı. O, nəinki dilimizlə bağlı problemləri göstərir, eyni zamanda onun aradan qaldırılması üçün görülməli işləri də, habelə bu dilin inkişafı, mükəmməlləşməsi və yayğın bir dilə çevrilməsi üçün Azərbaycan insanının – Vətən övladının qarşısında duran vəzifələri də bir-bir anladırdı. Bu da təsadüfi deyildi. Çünki o, Azərbaycan dilini xalqımızın əvəzsiz mənəvi və mədəni sərvəti kimi qiymətləndirirdi. Ulu Öndər Heydər Əliyev demişdir: "Öz doğma dilini bilməyən insan tarixini, ədəbiyyatını, milli-mədəni köklərini, milli adət və ənənələrini bilməz. Bu isə yolverilməz haldır" .

Ümumən müstəqilliyimizin ilk illəri Azərbaycanın siyasət məkanında baş verən müxtəlif yönlü hadisələrlə, yaddaşlarda dərin iz buraxdı. Bu illər eyni zamanda hər birimizin ömründən keçən ağrılı-acılı illər oldu. Belə ki, bu dövr ərzində biz illərlə gözlədiyimiz istiqlalımıza qovuşmaqla bərabər, həm də bu istiqlala tuşlanmış zəhərli oxların ağrı-acısını da yaşamalı olduq. Bir tərəfdən xarici qüvvələrdən gələn zərbələri dəf etmək, digər tərəfdən hakimiyyətdəki

**AUDİT 2023, 1 (39), səh. 85-90.**
**AUDIT 2023, 1 (39), pp. 85-90.**
**АУДИТ 2023, 1(39), стр. 85-90.**

səbatsız qüvvələrin qəbul etdikləri yanlış qərarlar, həmçinin cəmiyyət içərisindəki süni gərginliklər böyük bir çaşqınlıq yaratmışdı.

Lakin Ulu Öndər Heydər Əliyev bütün bu gərginliklərin qarşısını aldı, xalqımızı çaşqınlıqdan xilas etdi, bütün istiqamətlər üzrə düzgün strategiyanı təyin etdi. Həmçinin Azərbaycan dilinin zənginliyinin qorunmasını, dövlət dili kimi tətbiqini daha da möhkəmlətdi.

Ulu Öndər Heydər Əliyevin saysız-hesabsız xidmətləri içində Azərbaycan dili ilə bağlı həyata keçirdiklərinin xüsusi çəkisi var. İstər sovet dövründə, istərsə də müstəqillik illərində onun Azərbaycan dili ilə bağlı mücadilələrini izləyərkən Ümummilli Liderin öz dilinin necə böyük bir təəssübkeşi olduğunun şahidi olmuşuq.1995-ci ildə müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul edilərkən dövlət dilinin adı ilə bağlı müzakirələr hamının yadındadır. O zaman Ulu Öndərin necə böyük bir müdrikliklə dilin xalqın özü olması, onun əsrlərlə saflaşa-saflaşa yol gələrək ləhcə deyil, müstəqil bir dil statusu qazanması və dilin adının dövlətin müstəqilliyi kimi qavranılması ilə eyni olduğunu anlatması da yaddaşlardadır. Ulu Öndər Heydər Əliyev şərəf məsələsi olan dilimizin mükəmməl, müstəqil bir dil olduğunu önə çəkməklə əslində Azərbaycan insanının qürurunu, müstəqil kimliyini anlatmış oldu. Digər tərəfdən, bu, bir siyasi məna da daşıyırdı. O, Azərbaycanda yaşayan azsaylı xalqlara münasibət məsələsinin həssas məsələ olduğunu öz çıxışlarında göstərirdi.

Beləliklə, 1993- cü ildə ikinci dəfə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev həmin dövrdə respublikanın saysız problemlərini aradan qaldırdı və nəhayət, 1995-ci ildə milli-mənəvi dəyərimiz olan ana dili məsələsinə, daha doğrusu, ana dilimizin adı ilə bağlı məsələyə xüsusi vaxt ayırdı. Belə ki, 1995-ci il oktyabr ayının 31-də Azərbaycan Respublikası Elmlər Akademiyasında «Azərbaycan dilinin müzakirəsinə həsr olunmuş müşavirə»də dilimizin adı müzakirəyə çıxarıldı. Müşavirədə Azərbaycanın görkəmli elm adamları - dilçilər, ədəbiyyatşünaslar, şairlər, yazıçılar, filosoflar, tarixçilər, arxeoloqlar, siyasət adamları və s. iştirak edir və hər kəs dilimizin adı ilə bağlı fikirlərini söyləyirdi. Bu müzakirələrin sonunda dilimizin adıyla bağlı bir neçə versiya səsləndi. Bunlar türk dili, Azərbaycan türk dili, Azərbaycan türkcəsi və Azərbaycan dili variantları idi. Ulu Öndər Heydər Əliyev özü bilavasitə bu müzakirələrdə iştirak edərək hər bir çıxışçını diqqətlə dinlədi. Sonda hamının fikrinə hörmətlə yanaşdığını qeyd edərək mülahizələrini özünün müdrik təfəkkür süzgəcindən keçirərək belə izah etmiş oldu: "Ana dilinin adı müasir ictimai təfəkkür üçün tamamilə aydın olmalı, arxaik səciyyə daşımamalıdır. Ölkənin, xalqın və dilin adında məntiqi bağlılıq olmalı, biri digərini təsdiq etməlidir. Milli müstəqillik, milli mənlik qüruru zədələnməməlidir" [5]. Bu düşüncə o qədər doğru bir yanaşma idi ki, bütün yanlış fikir müəllifləri bu məntiqin qarşısında fikirlərinin sadəcə mənasızlığını dərk edərək geri çəkilmiş oldular.

90-cı illərin əvvəllərində dilimizin adının başı üstündə qurulan siyasətin heç də doğru olmadığını çox böyük siyasi müdrikliklə, güclü məntiqlə ortalığa qoyaraq bütün opponentlərini susdurmağı bacaran Ulu Öndər Heydər Əliyev deyirdi: "Bütün dünya bizi azərbaycanlı kimi tanıyır və dilimizin adı da Azərbaycan dilidir. Belə olan halda, dilimizin adını dəyişməklə biz dünya ictimaiyyətini çaşdıra bilərik və birdən-birə dünyanı bu istiqamətdə maarifləndirmək heç cür mümkün ola bilməz. Bizim ərazimizdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş hüdudlar çərçivəsində Azərbaycan Respublikasında yaşayanlar azərbaycanlılardır. Biz öz dilimizi gedib heç bir başqa dilə nə qarışdırmalıyıq, nə də ona yapışdırmalı, qoşmalıyıq. Bizim özümüzün dilimiz var. Bu dil də bizim dilimizdir. Mən bunu demişəm, yenə də deyirəm, türk dilləri qrupuna məxsus olan digər dillər, ola bilər, həsəd apara bilərlər ki, bizim dilimiz nə qədər zəngindir" [5].

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinin Konstitusiyamızda əks olunması barədə fikri də maraqlıdır: " Bu gün biz dövlət dilimiz haqqında məsələni müzakirə edərkən heç bir

**AUDİT 2023, 1 (39), səh. 85-90.**
**AUDIT 2023, 1 (39), pp. 85-90.**
**АУДИТ 2023, 1(39), стр. 85-90.**

konyukturaya yol verməməliyik. Hansısa bir qərarı qəbul edəcəyiksə, - bu, kimin xoşuna gələcək, ya gəlməyəcək, - bu bizi narahat etməməlidir. Biz onu həqiqət əsasında qəbul etməliyik və kimdənsə üzrxahlıq da etməməliyik: Bağışlayın, biz sizinlə qardaşıq, amma biz dilimizi belə etmək istəyirik. Mən bununla da razı deyiləm" [5].

Beləliklə, 1995-ci ildə dövlət dilinin məhz Azərbaycan dili kimi Konstitusiyamızda təsbit olunması çox düzgün bir qərar olaraq bilavasitə onun xidməti oldu. Bununla o, siyasi düşüncə dərinliyini, siyasi düşüncə mədəniyyətini, bir dövlət başçısı kimi xalqın heysiyyətinin onun üçün hər şeydən ucada olduğunu bir daha əməli ilə sübut etdi.

Bildiyimiz kimi, hər hansı bir xalqın qədimliyini sübut edən çoxlu faktorlar var: yeraltı və yerüstü maddi sübutlar, müxtəlif yazılı məxəz və qaynaqlar və s. Lakin bütün bunların içində dil ən vacib faktordur. Ulu Öndər Heydər Əliyev xalqımızın qədimliyini məhz dilimizin ifadə zənginliyi ilə əlaqələndirərək "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" imzaladığı Fərmanda belə qeyd edir: "Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir. Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə edə bilmək kamilliyinə yetişə bilməsi üçün hər hansı bir xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi onu göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır" [1]. Azərbaycan dilinə verilmiş bundan gözəl dəyər yoxdur.

Ulu Öndər Heydər Əliyevin ana dilimizlə bağlı fəaliyyət və xidmətini təqribən üç istiqamət üzrə dəyərləndirmək olar:

1. Birbaşa Azərbaycan dilinin qorunması, istifadəsi və inkişafı ilə bağlı verdiyi Fərman, Sərəncam və Qərarlar;
2. Azərbaycan dili ilə bağlı ayri - ayrı zamanlarda söylədiyi qiymətli fikirlər;
3. Azərbaycanın istər klassik, istərsə də çağdaş ədəbiyyat və söz xadimlərinə bəslədiyi münasibət.

Ümumiyyətlə, xalqın təkidi və tələbi ilə hakimiyyətə ikinci dəfə qayıdışından, yəni 1993-cü ildən ömrünün sonuna kimi Ulu Öndər Heydər Əliyev davamlı olaraq Azərbaycan dilinin qorunması ilə bağlı çoxlu Fərmanlar, Sərəncamlar, Qərarlar vermişdir ki, bunlar da birbaşa onun öz dogma dilinə-ana dilimizə olan böyük sevgisi və sayğısından irəli gəlirdi. Aşağıda onlardan bir neçəsindən nümunə gətirməklə fikrimizi əsaslandıraq. Onu da qeyd edək ki, istər Ulu Öndərin, istərsə də onun layiqli davamçısı möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin ana dilimizin qorunması və inkişafı ilə bağlı verdiyi çoxlu sayda Fərman, Sərəncam və Qərarlar Azərbaycan dilinin bundan sonra da əsrlərə yol yoldaşı olacağından xəbər verir.

"Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə, onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur" [1].

"Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanun qəbul olunması yolu ilə nəticələndi. On ilə yaxın bir müddətdə latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-

**AUDİT 2023, 1 (39), səh. 85-90.**
**AUDIT 2023, 1 (39), pp. 85-90.**
**АУДИТ 2023, 1(39), стр. 85-90.**

ci il avqust ayında bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq qərara alıram: Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilsin" [2].

Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır [3].

"Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram: Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- həmin qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin" [4].

Ulu Öndərin ana dilimiz - Azərbaycan dilinə xidmətinin ikinci istiqaməti özünün bu dillə bağlı söylədiyi yüksək fikirlərdir ki, bunlar da xalqımıza ruh verərək bu dilə daha da böyük məhəbbətlə yanaşmasına səbəb olmuşdur. Ulu Öndər Heydər Əliyev Azərbaycan dilinin möhtəşəmliyindən, onun ifadə gözəlliyinindən bəhs edərkən öz dilinin vurğunu kimi danışır, bu sevgini dünyanın hər tərəfinə ötürə bilirdi. Ulu Öndərin ana dilimizlə bağlı fikirlərində sevgi, sayğı, qürur , heyranlıq və s. bu kimi hisslər çox qabarıqdır. Ulu Öndər Azərbaycan dili haqqında sayğılı fikirləri, düşüncələri ilə, sevgi dolu yanaşması ilə də yenə Azərbaycan dilinə xidmət edirdi. Aşağıda bu fikirlərdən bir neçəsini qeyd etmək yerinə düşər.

"Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir".

"Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Şəxsən mən bu dili sevir, bu dildə danışmağımla fəxr edirəm".

"Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir".

"Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini bilməlidir".

"İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".

"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir".

"Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz-Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər".

Ulu Öndər Heydər Əliyev Azərbaycan dilinin, habelə Azərbaycan tarixinin çox keşməkeşli çağlarından keçib bu günümüzə çatmasında Azərbaycanın söz ustalarının - şairlərinin, yazıçılarının misilsiz xidmətləri olduğunu hər zaman qeyd edir və özü də onların layiq ol-

**AUDİT 2023, 1 (39), səh. 85-90.**
**AUDIT 2023, 1 (39), pp. 85-90.**
**АУДИТ 2023, 1(39), стр. 85-90.**

duqları hörməti onlardan əsirgəmirdi. Əgər Molla Pənah Vaqifə Şuşada məqbərə tikdirirdisə, bu, birbaşa Azərbaycan dilinə olan hörmətdən qaynaqlanırdı, Cəfər Cabbarlıya heykəl ucaldırdısa, bu, Azərbaycan dilinə ucaldılmış heykəl idi. Ulu Öndər Heydər Əliyev öz həmmüasiri olan şair və yazıçılara xüsusi diqqət və qayğı göstərirdisə, bu yenə də, ilk növbədə, Azərbaycan dilinə olan hörmətdən irəli gəlirdi. Çünki ədəbiyyat özü də, hər şeydən əvvəl dil hadisəsidir. Belə misallar isə saysız qədərdir.

Böyük romantik şair və filosof Hüseyn Cavidin nəşinin uzaq Sibirdən gətirib doğma Naxçıvanda torpağa qovuşdurması, Cavidlər məqbərəsinin tikilməsi, Bakıda böyük hürufi şair İmadəddin Nəsimiyə, romantik şair Hüseyn Cavidə, Nəriman Nərimanova, Cəfər Cabbarlıya möhtəşəm heykəllər qoydurması, dahi Azərbaycan şairi Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi söz ustadlarının dünya miqyasında yubileylərinin keçirilməsi yenə birbaşa Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinə xidməti idi. Dünyanın böyük yazıçılarından biri, qırğız ədibi Çingiz Aytmatov "Heydər Əliyev tarixi, hətta əfsanəvi şəxsiyyətdir" deyirdi. Bu, həqiqətən belədir. O, dünyanın qədim, böyük türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illiyini bütün dünyada keçirməklə həm dastanın, ilk növbədə, Azərbaycan xalqına məxsus olduğunu sübut etdi, həm də Azərbaycan şifahi ədəbi dilinin tarixinin 1300 illik bir tarixə malik olduğunu fakt olaraq dünya dilçiliyinə sübut etmiş oldu.

## YEKUN

Hələ sövet dövründə -1978- ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi fəaliyyəti haqqında ayrıca maddənin daxil edilməsi, 2001-ci il 18 iyun tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında"kı Fərmanın verilməsi, 2001-ci il 9 avqust tarixli Fərmanı ilə xalqımızın latın qrafikalı Azərbaycan əlifbasına keçməsi və elə həmin tarixdən elmi və bədii ədəbiyyatın latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunmasına qərar verilməsi və s. bu kimi ana dilimizlə bağlı saysız tale yüklü məsələlərin həlli Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinə əvəzsiz xidmətləri idi.

Ulu Öndər təkcə dilimizin inkişafına deyil, bütün sahələrə çox böyük diqqət və qayğı göstərərək dilimizin qədim tarixə malik olmasını və zənginliyini beynəlxalq miqyasda sübut etdi, milli mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı, elmimizi, həmçinin dilimizi dünya xalqlarına tanıtdırdı.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri, 18 iyun 2001-ci il.
2. "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri, 9 avqust 2001-ci il.
3. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 30 sentyabr 2002-ci il.
4. "Azərbaycan Respublikasında dövlət dili haqqinda" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri, 02 yanvar 2003-cü il.
5. 1995-ci il oktyabrın 31-də Azərbaycan Respublikası EA-da "Azərbaycan dilinin müzakirəsinə həsr olunmuş müşavirə"dəki müzakirənin stenoqramı.

**AUDİT 2023, 1 (39), səh. 85-90.**
**AUDIT 2023, 1 (39), pp. 85-90.**
**АУДИТ 2023, 1(39), стр. 85-90.**

*Shaiga Hamza Iskandarova,*
*Ph.D. (Phil.), Associate Professor,*
*Baku Business University,*
*Email:iskenderovashaiqe@gmail.com*
*© Sh.H. Iskandarova, 2023*

## HEYDAR ALIYEV'S STATE LANGUAGE POLICY

### A B S T R A C T

The National Leader Heydar Aliyev who played an exceptional role in the fate of Azerbaijani people during the soviet period and after getting independence, had the greatest services for the development of the Azerbaijani language. He put his signature under a myriad of legal acts in order to protect, develop, purify and promote our language. Heydar Aliyev was engraved on the memory of this nation due to his invaluable services to the Azerbaijani people, as well as the Azerbaijani language.

**Keyswords:** Azerbaijani language, national memory, public service, state language, history, culture, art.

*Искандерова Шаига Хамза кызы,*
*доктор философии по филологии, доцент,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: iskenderovashaiqe@gmail.com*
*© Искандерова Ш.Х., 2023*

## ГОСУДАРСТВЕННАЯ ЯЗЫКОВАЯ ПОЛИТИКА ГЕЙДАРА АЛИЕВА

### Р Е З Ю М Е

Великий лидер Гейдар Алиев, сыгравший исключительную роль в судьбе азербайджанского народа как в советский период, так и после обретения независимости, оказал азербайджанскому языку большие услуги. Он подписал множество актов по защите, развитию, чистоте и популяризации нашего языка. Его заслуги перед азербайджанским народом, а также перед азербайджанским языком навсегда высечены в каменной памяти этого народа.

**Ключевые слова:** Азербайджанский язык, народная память, государственная служба, государственный язык, история, культура, искусство.

*Məqalə redaksiyaya daxil olmuşdur: 19.01.2023*
*Təkrar işləməyə göndərilmişdir: 01.02.2023*
*Çapa qəbul olunmuşdur: 10.02.2023*

*Дата поступления статьи в редакцию: 19.01.2023*
*Отправлено на повторную обработку: 01.02.2023*
*Принято к печати: 10.02.2023*

*The date of the admission of the article to the editorial office: 19.01.2023*
*Send for reprocessing: 01.02.2023*
*Accepted for publication: 10.02.2023*